**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**BƏXTİYAR KAMİL oğlu HƏSƏNOV**

# AZƏRBAYCANIN QARABAĞ REGİONU XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi**
**almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2018**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun "Qarabağ tarixi" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
AMEA-nın həqiqi üzvü **İ.M.HACIYEV**

**Rəsmi opponentlər:**
Tarix üzrə elmlər doktoru, prof. **K.K.Şükürov**
Tarix üzrə fəlsəfə doktoru, dos. **F.R.Cabbarov**

**Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedaqoji Universitetinin "Azərbaycan tarixi" kafedrası**

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində 5503.02 – "Vətən tarixi", 5502.01 – "Ümumi tarix", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının "_____"____________ 2018-ci il tarixli iclasında saat _____ keçiriləcəkdir

Ünvan: AZ1143, Bakı şəhəri, H.Cavid prospekti, 115

Dissertasiya işi ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat "____"__________2018-ci il tarixində göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi
tarix üzrə fəlsəfə doktoru, dos. **C.Ə.BƏHRAMOV**

# I. DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin əvvəlləri Şimali Azərbaycan tarixində çox mühüm bir dövr hesab olunur. Bu dövrün öyrənilməsi milli tarixşünaslıq üçün böyük elmi və siyasi əhəmiyyət kəsb edir. Məhz bu dövr Şimali Azərbaycanda ictimai-siyasi təşkilatların, siyasi partiyaların yaranması, milli özünüdərk prosesinin yüksəlişi, imperiyanın süqutu, qədim və zəngin dövlətçilik ənənələrinin bərpası ilə nəticələndi. Bu dövrü, türk-müsəlman dünyasında ilk dəfə yaranmış, eləcə də Azərbaycan tarixinin qızıl səhifəsini təşkil edən Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına zəmin yaratmış dövr kimi qeyd edə bilərik. Belə ki, Azərbaycan xalqının dövlətçilik ənənələrini özündə birləşdirən, orta əsrlərdə mövcud olmuş Azərbaycan dövlətlərinin siyasi və hüquqi varisi olan Azərbaycan Xalq Cümhuriyyəti, keşməkeşli və ağır siyasi proseslərdən keçən Azərbaycan xalqının siyasi və ideoloji mübarizəsinin məntiqi nəticəsi idi.

XX əsrin əvvəlləri Azərbaycan tarixində siyasi və milli-mədəni oyanış dövrü olmaqla yanaşı, ağır siyasi və sosial-iqtisadi şərait, I Dünya müharibəsinin Şimali Azərbaycanın iqtisadiyyatına vurduğu zərbə, milli ziyalıların, siyasi şəxsiyyətlərin və azadlıq mübarizlərinin keçdikləri şərəfli tarix yolu ilə xarakterizə olunur.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ regionu, xalqımızın, siyasi, sosial-iqtisadi və mədəni irsinin mərkəzi kimi qədim Azərbaycan sivilizasiyasının beşiyi hesab edilir.

XIX əsrdə Rusiya imperiyası tərəfindən Şimalı Azərbaycan işğal olunduqdan sonra bölgənin strateji əhəmiyyətini nəzərə alan çar hökuməti bu regionu öz siyasi nəzarətində saxlamaq üçün olduqca ciddi siyasi addımlar atdı. Türkmənçay sazişini (1828) imzaladıqdan sonra Cənubi Qafqazda öz mövqelərini gücləndirmək və etnik dayaq yaratmaq üçün çar Rusiyası Osmanlı və Qacarlar dövlətlərinin ərazilərindən Şimali Azərbaycan torpaqlarına ermənilərin kütləvi köçürülməsini təşkil etdi. Bu da Qarabağda və ətraf bölgələrdə yerli, Azərbaycan əhalisinin siyasi və etnik mövqeyinin zəifləməsinə səbəb oldu.

XIX əsrdə çar Rusiyası tərəfindən həyata keçirilən bu proses XX əsrin əvvəllərində kütləvi şəkil aldı. Baş verən bu hadisələr Azərbaycan türk-müsəlman əhalinin çar Rusiyası hökumətinin təhriki ilə ermənilər tərəfindən kütləvi qırğını, deportasiyası və soyqırımı ilə nəticələndi ki, bu da regionun siyasi, sosial-iqtisadi və etnomədəni həyatına ciddi zərbə vurdu.

O dövrdə Şimali Azərbaycanın Qarabağ regionunun qəzalarında ermənilərin türk-müsəlman əhaliyə qarşı törətdikləri soyqırımı haqqında Azərbaycan Respublikasının Prezidenti Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanında deyilir: "Azərbaycanın XIX-XX əsrlərdə baş vermiş bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı

mərhələlərini təşkil etmişdir"[1].

Ümummilli Lider Heydər Əliyevin yuxarıda adı çəkilən fərmanında həmin hadisələrə doğru tarixi-siyasi qiymət verilmiş, bununla da Azərbaycanın tarixi Qərb torpaqları və hazırda Ermənistan dövləti tərəfindən işğal edilmiş Şimali Azərbaycanın Dağlıq Qarabağ və ətrafındakı digər rayonların XX əsrin əvvəllərinin tarixinin obyektiv öyrənilməsi məsələləri məqsəd olaraq qarşıya qoyulmuşdur.

Bu fərmanın nəticəsi olaraq, 2002-ci ildə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda "Qarabağ tarixi" şöbəsi yaradılmış və şöbənin əməkdaşları tərəfindən bu mövzuda bir neçə dissertasiya uğurla müdafiə edilmiş və çoxlu sayda elmi əsərlər yazılıb nəşr etdirilmişdir.

XX əsrin əvvəllərində çar Rusiyası hakimiyyətinin birbaşa siyasi və hərbi köməyi, Qərb dövlətlərin siyasi yardımları ilə Qərbi Azərbaycan torpaqlarının 9 min kvadrat kilometrində Ararat (Ermənistan) Respublikası yaradıldı. Şimali Azərbaycan 1920-ci ildə Qızıl ordu tərəfindən işğal edildikdən sonra, Qarabağ regionunun siyasi və strateji əhəmiyyətini nəzərə alan Sovet Rusiyası və erməni hakimiyyəti, Qarabağın ərazilərini də ermənilərin nəzarətinə keçirməyə ciddi cəhdlə təşəbbüs etməyə başladılar.

1918-ci il mayın 29-da Qərbi Azərbaycan torpaqlarında Ararat (Ermənistan) Respublikası yaradıldıqdan sonra Avropa, xüsusilə Sovet Rusiyası və erməni tarixşünaslığında bu dövlətin qədimliyini və ermənilərin bu bölgədə aborigen xalq olmasını təsdiq etmək üçün ermənilərin siyasi məqsədləri əsaslandırılmağa çalışıldı və saxta tarixi "əsərlər" yazılmağa başlanıldı. Bu əsərlər vasitəsilə Şimali Azərbaycanın bir hissəsi olan Qarabağın tarixi, mədəni və mənəvi irsi saxtalaşdırıldı, Qarabağın bir hissəsi Şimali Azərbaycanın qədim mahallarından biri olan Zəngəzur qəzası Sovet Rusiyası tərəfindən o dövrdə yeni yaradılmış Ermənistan SSR-ə birləşdirildi. Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 16 sentyabr 2010-cu ildə İstanbulda keçirilən Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında söylədiyi nitqində demişdir: "Türk dünyası böyük dünyadır. Vaxtilə türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsi nəticəsində türk dünyası arasında olan coğrafi bağlantı pozulubdur. Biz xəritəyə baxsaq görərik ki, əgər o tarixi ədalətsizlik törədilməsəydi, bu gün vahid türk dünyası coğrafi baxımdan da bir məkan kimi yaşayacaqdı"[2].

Bütün bunlara baxmayaraq, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra tariximizin obyektiv və hərtərəfli şəkildə yazılma imkanı əldə edildi.

Azərbaycan milli tarixşünaslığında Qarabağ regionunun siyasi, sosial-iqtisadi və mədəniyyət tarixi ilə bağlı ayrı-ayrı əsərlərdə məlumatlar verilsə də, bu regionun son dövrlər, xüsusilə də XX əsrin əvvəllərinin tarixinin bü-

---

[1] Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı // "Xalq qəzeti" qəz., Bakı: 1998, 27 mart, №98.

[2] http:// www.zengezur.com/index.php/zngzur

tün aspektlərinin hərtərəfli tədqiqinə ehtiyac vardır. Xüsusilə də, ermənilərin və onların himayədarlarının torpaqlarımıza əsassız, siyasi iddialarının daha da intensiv xarakter almasını nəzərə alaraq, XX əsrin əvvəllərində Qarabağ regionunun siyasi, sosial-iqtisadi və mədəni tarixini obyektiv şəkildə araşdırmaq, onu, bu regionun tarixini saxtalaşdıran ermənilərin və onların maraqlarına xidmət edən muzdlu "tarixçi"lərin saxta, uydurma, qeyri obyektiv fikirlərindən xilas etmək olduqca vacib və aktual məsələdir. Bu baxımdan, XX əsrin əvvəllərində Qarabağ regionunun siyasi, sosial-iqtisadi və mədəni həyatının tədqiqi olduqca böyük əhəmiyyət kəsb edir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiyanın xronoloji çərçivəsi tədqiq olunan dövrə əsasən müəyyənləşdirilmiş, araşdırma zamanı xronoloji ardıcıllıq gözlənilmişdir. Tədqiqat əsəri XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ regionunda baş verən ictimai-siyasi hadisələrin müqayisəli şərhi ilə başlayır, regionda baş verən siyasi, sosial-iqtisadi və mədəni hadisələr ardıcıllığı ilə davam edir, tədqiq olunan hadisələrin xronoloji dövrü 1918-ci ildə başa çatdırılır.

**Mövzunun öyrənilmə səviyyəsi.** Azərbaycan milli tarix elminin nümayəndələri və bir sıra xarici ölkə tədqiqatçılarının Azərbaycanın tarixi ilə bağlı XX əsrin əvvəllərində baş verən ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı haqqında yazdıqları tədqiqat əsərlərindəki məlumatlar tədqiqat üçün elmi baza rolunu oynayır. Dissertasiyada Azərbaycanın Qarabağ regionunun XX əsrin əvvəllərində tarixi, xüsusilə həmin dövrdə mövcud olmuş Yelizavetpol (Gəncə) quberniyasının tərkibində olan Şuşa, Cəbrayıl, Cavanşir (1904-cü ildən Qaryagin), Zəngəzur qəzalarının tarixinə dair materiallar tədqiqata cəlb edilmişdir.

"Azərbaycanın Qarabağ regionu XX əsrin əvvəllərində" mövzusunun tarixşünaslığını əsasən üç dövrə bölmək olar. Hər bir dövrdə müəlliflər mövzu ilə bağlı məsələlərə müxtəlif və fərqli yanaşmalar ortaya qoymuş və bəzi hallarda yanlış nəticələrə gəlmişlər.

Bunlardan birincisi, əsasən çar Rusiyası dövründə çar məmurlarının imperiyanın geosiyasi və iqtisadi marağına uyğun yazılan əsərləri, ikincisi, SSRİ dövründə kommunist ideologiyasının siyasi, iqtisadi və sosial maraqlarına uyğun yazılan əsərlər, üçüncüsü isə dövlət müstəqilliyi bərpa edildikdən sonrakı dövrdə Azərbaycan tarixçilərinin yazdıqları əsərlərdir. Qeyd etmək lazımdır ki, tədqiq etdiyimiz dövrün tarixi ilə bağlı bir sıra xarici ölkə müəllifləri yazdıqları əsərlərdə öz dövlətinin siyasi maraqlarına uyğun olaraq yanlış, qeyri obyektiv məlumatlar vermişlər.

Bütün bunlarla yanaşı tariximizin bu mürəkkəb dövrünə dair qiymətli əsərlər də yazılmışdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan tarixşünaslığında ermənilərin Dağlıq Qarabağ ərazisinə iddialarının əsassız olması məsələsi mərhum akademik İ.Əliyevin 1989-cu ildə nəşr etdirdiyi əsərində öz əksini tapmışdır[1].

Tədqiqat zamanı XX əsr Qarabağ regionunun tarixinin araşdırılmasın-

[1] Əliyev İ.H. Dağlıq Qarabağ. Bakı: 1989.

da akademik R.Mehdiyevin əsərlərinin böyük əhəmiyyəti vardır[1]. Müəllifin əsərlərində Qarabağın siyasi tarixi, Böyük dövlətlərin Cənubi Qafqaz və Qarabağ regionunda apardığı siyasət əks olunmuşdur.

Akademik Y.M.Mahmudovun Qarabağ tarixinin tədqiqində böyük xidmətləri vardır. Onun özünün[2] və həmmüəllif olduğu əsərlərində[3] Şimali Azərbaycanın Qarabağ regionunda türk-müsəlman əhaliyə qarşı törədilmiş soyqırımı, Qarabağ regionunun tarixi, ictimai-siyasi vəziyyəti, etnik və demoqrafik durumu, mədəni həyatı haqqında məlumatlar verilmişdir.

Yaqub Mahmudovun elmi redaktorluğu ilə Azərbaycanlıların soyqırımı və deportasiya tarixinin öyrənilməsində AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun nəşr etdirdiyi toplulardakı[4] məlumatların da çox böyük əhəmiyyəti vardır.

Tədqiq edilmiş dövrə aid AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunda nəşr olunmuş VII cildlik Azərbaycan tarixi əsərinin, IV, V, VI cildlərində[5] regionun siyasi, sosial-iqtisadi, mədəni həyatı haqqında qiymətli məlumatlar verilmişdir.

Mövzu tədqiq olunarkən Akademik İsmayıl Hacıyevin tədqiqat əsərlərinə[6] istinad edilmişdir. Onun əsərlərində XX əsrin əvvəllərində Azərbaycanın Naxçıvan bölgəsinin siyasi tarixi araşdırılmış, Qarabağ regionunun siyasi tarixinə dair maraqlı məlumatlar verilmiş, ermənilərin azərbaycanlı əhaliyə qarşı törətdiyi kütləvi qırğınlar və bölgədə baş verən ictimai-siyasi proseslər barədə geniş məlumatlar öz əksini tapmışdır.

Dövrün tədqiqatçılarından İ.S.Bağırovanın əsərində[7] Qarabağ regionunda baş verən ictimai-siyasi vəziyyət barədə məlumatlar öz əksini tapmışdır. Əsərdə Qarabağ regionunda fəaliyyət göstərən "Difai" partiyasının fəaliyyəti və partiyanın "Qarabağ Birlik Məclisi" bölməsi haqqında geniş məlumatlar verilmişdir.

Qarabağ tarixinin araşdırılmasında Qasım Hacıyevin əsərlərinin də [8]

---

[1] Mehdiyev R. Azərbaycanlılara qarşı soyqırım gerçəkləri. Bakı: 2000.

[2] Махмудов Я.М. Геноцид тюрко-мусульманского населения Азербайджана в 1918-1920 годах. Баку: ИПО Турхан, 2015.

[3] Mahmudov Y., Şükürov K. Qarabağ. Real tarix, faktlar, sənədlər. Bakı: 2009, 143 s; MahmudovY., Mustafayev C. Şuşa Pənahabad. Bakı: 2012.

[4] Azərbaycan tarixi arxiv sənədlərində. XIX-XX əsrlər. Ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi (Azərbaycan Dövlət Tarix Arxivinin sənədləri). AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Elmi redaktor: Mahmudov Y.M. Bakı: 2012; Azərbaycan xalqına qarşı 1918-1920-ci illər soyqırımı. II cild, I kitab. Gəncə quberniyası. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu. Ön sözün müəl. Y.M.Mahmudov. Bakı: 2010; Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. 2 cilddə/Baş red. Y.Mahmudov. I cild. Bakı: 2004.

[5] Azərbaycan tarixi. Yeddi cilddə. IV cild (XIX əsr). Bakı: 2007; Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı: 2008; Azərbaycan tarixi. Yeddi cilddə. VI cild. Bakı: 2008.

[6] Hacıyev İ.M. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: 2012.

[7] Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века. 1900-1917. Баку: 1997.

[8] Hacıyev Q.Ə. Qarabağın maddi və mənəvi mədəniyyəti. Bakı: 2010; Hacıyev Q.Ə. Qarabağ tarixi. Bakı: 2014; Hacıyev Q.Ə., Çingizoğlu Ə. Qarabağlı hərbiçilər (çar və AXC ordusunun zabitləri). Bakı: 2011.

əhəmiyyəti böyükdür. Müəllifin əsərlərində Şimali Azərbaycanın Qarabağ regionunun siyasi, sosial-iqtisadi, mədəni həyatı haqqında məlumatlar verilmişdir.

Tədqiq olunan dövrdə Şimali Azərbaycanın Qarabağ regionunun sosial-iqtisadi və demoqrafik vəziyyətinin öyrənilməsində Kərim Şükürovun əsərinin[1] böyük əhəmiyyəti vardır. Bu əsərdə tədqiqatçı alim ilk dəfə Azərbaycan əhalisinin öyrənilməsinin inkişaf tarixini, əhalinin əsas qaynaqlarına dair arxiv və nəşrlərdən toplayaraq sistemləşdirdiyi sənəd və materialların siyahılarını vermişdir.

Qarabağ regionunun tarixinin tədqiq olunmasında xüsusi rolu olan Nazim Məmmədovun Şuşa qəzasının tarixinə dair əsərində[2] qəzanın sosial-iqtisadi vəziyyəti, mədəni həyatı, çarizmin bu bölgədə milli qırğın siyasəti öz əksini tapmışdır.

Vaqif Piriyevin əsərində[3] Azərbaycanın və onun tərkib hissəsi olan Qarabağın müxtəlif dövrlərdəki əraziləri, sərhədləri, inzibati bölgüsü şərh olunmuşdur.

Ataxan Paşayevin[4] və İsrafil Məmmədovun[5] müxtəlif ilkin mənbələr və arxiv materialları əsasında apardıqları tədqiqatlar tarixşünaslığımız üçün sanballı əsərlərdir. Bu əsərlərdə şovinist erməni millətçilərinin xalqımıza qarşı törətdikləri soyqırımı və xalqımızın məruz qaldığı işgəncə və məhrumiyyətlər, panarmenizmin yaranması, siyasi və strateji mahiyyəti, ermənilərin Cənubi Qafqazda yerləşdirilməsi, "Erməni məsələsi"nin gündəmə gəlməsi, xüsusilə də XX əsrdə azərbaycanlıların soyqırımı məsələləri tarixi faktlar və rəsmi sənədlər əsasında geniş şərh olunmuşdur.

Azərbaycanlıların soyqırımı tarixi ilə bağlı ümumiləşdirilmiş topluların[6] da əhəmiyyəti böyükdür. Bu səpkili əsərlərdə azərbaycanlılara qarşı həyata keçirilən deportasiya, soyqırımı faktlarını əks etdirən çoxlu sayda tarixi sənədlər, materiallar toplanmışdır.

XX əsrin əvvəllərində Qarabağ regionunun Zəngəzur qəzasının siyasi tarixinin araşdırılmasında İ.M.Musayevin əsərində[7] xarici dövlətlərin Naxçıvan və Zəngəzur bölgələrində həyata keçirmək istədikləri siyasət araşdırılmışdır.

XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanın və onun tərkib hissə-

---

[1] Şükürov K.K. Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). Bakı: 2004.

[2] Məmmədov N.R. Azərbaycanın Şuşa qəzası 1900 -1917-ci illərdə. Bakı: 2005.

[3] Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: 2006.

[4] Paşayev A.Ə. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar arxiv sənəd və materialları əsasında). Bakı: 2011; Paşayev A.Ə. Açılmamış səhifələrin izi ilə. Bakı: 2001; Paşayev A.Ə. Köçürülmə. Bakı: 1995.

[5] Məmmədov İ.S. Erməni kilsəsi və türk-Azərbaycan torpaqlarında dolaşmaqda olan "Böyük Ermənistan" kabusu. Bakı: 2010; Məmmədov İ.S. Tariximiz, torpağımız, taleyimiz. Bakı: 2003; Мамедов И.С. "Трилогия Панарменизма". Баку: 2006.

[6] Deportasiya. Toplu. Bakı: 1998.

[7] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər).Bakı: 1998.

si olan Qarabağ regionunun sosial-iqtisadi tarixi, bazar münasibətlərinin inkişafı, kənd təsərrüfatı sahələri, çar Rusiyası tərəfindən həyata keçirilmiş aqrar islahatlar, pambıq emalı və ipək sənayesi Ə.S.Sumbatzadə[1], T.Ə.Bünyadov[2], M.A.İsmayılov[3], T.T.Vəliyev[4] və H.Həsənovun[5] əsərlərində təhlil edilmişdir.

XX əsrin əvvəllərində Qarabağ regionunun ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı əcnəbi tarixçilərin əsərlərində də bu və ya digər formada şərh edilmişdir.

Rus tarixçisi N.N.Şavrovun[6] əsərində XIX-XX əsrin əvvəllərində Cənubi Qafqazda, o cümlədən Azərbaycanda baş verən siyasi hadisələr, ermənilərin bu ərazilərə kütləvi şəkildə köçürülməsi və məskunlaşdırılması məsələləri dolğun şəkildə əks olunmuşdur.

Şərqşünas H.Y.Marrın[7] əsərində XX əsrin əvvəllərində Qafqaz əhalisinin sayı, və etnik tərkibi haqqında maraqlı məlumatlar verilmişdir.

Türkiyə tarixçisi İsmail Özçelikin[8] əsərində Qarabağ regionunu Rusiya tərəfindən işğalı, 1905-1906, 1918-1920-ci illərdə azərbaycanlılara qarşı törədilən qırğınlar və soyqırımı, bu bölgədə Rusiyanın ermənipərəst siyasəti müqayisəli şəkildə təhlil olunmuşdur.

Türk tarixçisi M.Sədi Koçaşın[9] əsəri də dövrün tədqiqi üçün olduqca əhəmiyyətlidir. Bu əsərdə türk erməni münasibətlərinin kökləri, "qondarma erməni soyqırımı"nın siyasi gündəmə gəlişi, ermənilərin türklərə qarşı həyata keçirdiyi planlı terror hadisələri geniş şəkildə öz əksini tapmışdır.

Mövzu tədqiq olunarkən, rus tarixçilərindən A.Ş.Milmanın[10], İ.Q.Seqalın[11], İ.P.Petruşevsinin[12], B.D.Moçalovun[13] A.F.Layster və Q. F. Çursinin[14], İ. Enikolopovun[15], N. Pçelinin[16],

---

[1] Сумбатзаде А.С. Развитие капитализма в России и его влияние на экономику Азербайджана во второй половине XIX в. // Присоединение Азербайджана к России и его прогрессивные последствия в области экономики и культуры (XIX - нач.XX вв.). Баку: 1955.

[2] Bünyadov T. Azərbaycanda maldarlığın inkişafı tarixindən. Bakı: 1969.

[3] Исмаилов М.А. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX-XX веков. Баку: 1960; Исмаилов М.А. Социально-экономическая структура Азербайджана в эпоху империализма. Баку: 1982.

[4] Vəliyev T.T. XX əsrin əvvəllərində Azərbaycanın ipək emalı sənayesi. Bakı: Elm, 1977, 254 s.

[5] Гасанов Г.Н. Из истории североазербайджанской деревни в конце XIX-начале XX вв. Баку: 2007.

[6] Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани инородцам. Баку: 1990.

[7] Марр Н.Я. Племенной состав населения Кавказа. Петроград: 1920.

[8] Özçelik İ. Karabağ Tarihi ve Karabağda Ermeni Olayları. Ankara: 2003.

[9] Koçaş S. Tarih Boyunca Ermeniler ve Türk Ermeni İlişkileri. Ankara: 1967.

[10] Мильман А.Ш. Политический строй Азербайджана в XIX-начале XX вв. Баку: 1966.

[11] Сегаль И.Г. Крестьянское землевладение в Закавказье. Тифлис: 1912.

[12] Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI- нач. XIX вв. Ленинград: 1949.

[13] Мочалов В.Д. Крестьянская хозяйство в Закавказье к концу XIX в. Москва: 1958.

[14] Ляйстер А.Ф., Чурсин Г.Ф. География Кавказа. Природа и население. Тифлис: 1924.

[15] Ениколопов И.К. Грибоедов и Восток. Баку: 1998.

[16] Пчелин Н.А. Крестьянский вопрос при Мусавата (1918-1920). Баку: 1931.

İ.K.Kanadpevin[1], V.L.Veliçkonun[2], Türkiyə tarixçilərindən M.Sarayın[3], H.Balın[4], A.Deliormanın[5], N.Aktesin[6], T.Akyolun[7], N.Devletin[8], F.Armaoğlunun[9] və başqalarının əsərlərində Qarabağ regionunun ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı haqqında bu və ya digər şəkildə məlumatlar əks olunmuşdur.

Mövzu ilə bağlı dövrü mətbuatda və internet resurslarında da maraqlı məlumatlar yer almışdır.

**Tədqiqatın mənbə bazası.** Mövzu araşdırılarkən XX əsrin əvvəllərində Şimali Azərbaycanın Qarabağ regionunun siyasi, sosial-iqtisadi, mədəni həyatı həmçinin Qarabağ regionunda ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı siyasətini özündə əks etdirən arxiv materialları, statistik materiallar, rəsmi dövlət sənədləri, müxtəlif dillərdə olan mənbələr, həmçinin dövrü mətbuat orqanlarında əks olunan məlumatlar tədqiqata cəlb olunmuşdur.

Tədqiq edilən dövrün mənbəşünaslığını əsasən XX əsrin əvvəllərində baş vermiş hadisələrin bilavasitə şahidi olmuş müəlliflərin əsərlərini və çar Rusiyası tərəfindən Qafqaza göndərilmiş məmurların yazdıqları əsərləri hesab etmək olar. Bu əsərlər sırf elmi-tədqiqat xarakteri daşımasa da, o dövrün hadisələrinin xronoloji ardıcıllıqla işıqlandırılmasında tədqiqatımız üçün faydalı mənbələr hesab olunur.

Azərbaycan xalqının ermənilər tərəfindən kütləvi qırğınlara məruz qoyulmasının canlı şahidi olmuş Mir Möhsün Nəvvabın "1905-1906-ci illərdə erməni-müsəlman davası"[10], Məmməd Səid Ordubadinin "Qanlı illər"[11] və Mirzə Rəhim Fənanın "1905-ci il hadisəsi"[12] əsərləri erməni vəhşilikləri haqqında ən qiymətli əsərlərdir. Azərbaycanın digər bölgələri ilə yanaşı Qarabağ regionunda erməni vəhşiliklərini öz gözləri ilə görmüş bu şəxslər, azərbaycanlıların ermənilər tərəfindən kütləvi surətdə qətlə yetirilməsini, qadınların və uşaqların kütləvi işgəncələrə məruz qoyulmasını əsərlərində qələmə almışlar. Bu əsərlər azərbaycanlılara qarşı soyqırımı tariximizin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir.

Dissertasiya yazılarkən XX əsrin əvvəllərində Şimali Azərbaycanın Qarabağ regionunun tarixini özündə əks etdirən, Azərbaycan Respublikası-

[1] Канадеев И.К. Очерки Закавказской жизни. Баку: 1990.
[2] Величко В.Л. Кавказ. Русское дело и междуплеменные вопросы. Баку: 1990.
[3] Saray M. Türk-Sovyet Münasebetleri ve Ermeni Meselesi. Ankara: 1985.
[4] Bal H. Azerbaycan Cumhuriyeti'nin Kurtuluş Mücadelesi (1914-1918) ve Kafkas İslam Ordusu. İstanbul: 2010.
[5] Deliorman A. Türklere Karşı Ermeni Komiteleri. II baskı, İstanbul, Basım ve Yayıcı evi, 1975, 360 s.
[6] Akdes N.K. Türkiye ve Rusya. Ankara: 1994.
[7] Akyol T. Azerbaycan Sovyetlər ve ötesi. İstanbul: 1990.
[8] Devlet N. Rusiya Türklerinin Milli Mücadele tarihi (1905-1917). Ankara: 1985.
[9] Armaoğlu F. 20.Yüzyıl Siyasi Tarihi 1914-1980 (cilt:1914-1980). Ankara: 1993.
[10] Mir Möhsün Nəvvab. 1905-1906-ci illərdə erməni-müsəlman davası. Bakı: 1993.
[11] Məmməd Səid Ordubadi. Qanlı illər. Bakı: 1991.
[12] Mirzə Rəhim Fəna. 1905-ci il hadisəsi. Bakı: 2009.

nın arxivlərində[1] olan mənbələr və rəsmi sənədlər, həmçinin digər diplomatik sənədlər toplusu tədqiqata cəlb olunmuşdur.

XX əsrin əvvəllərində Qarabağ regionunun sosial-iqtisadi və siyasi tarixinə dair qiymətli mənbələrdən biri müxtəlif illərdə tərtib edilmiş "Qafqaz təqvimi"ndə əks olunan məlumatlardır. Bu "Təqvimlərdə" [2] XIX-XX əsrin əvvəllərində Yelizavetpol quberniyasının əhalisi, inzibati ərazi bölgüsü, dini və etnik tərkibi və d. rəsmi məlumatlar təsvir olunmuşdur.

Qafqaz Statistika Komitəsinin sənədlərində[3], Yelizavetpol quberniyasının əhalisi, ərazisi, əhalinin qəzalar və şəhərlər üzrə yerləşmə və say dinamikası, kənd təsərrüfatı sahələrinin statistikası və digər sosial-iqtisadi sahələri əhatə edən məlumatlar əks olunmuşdur.

Mövzunun sosial-iqtisadi istiqamətləri tədqiq olunarkən Cənubi Qafqazda dövlət kəndlilərinin sosial-iqtisadi həyatını əks etdirən, çar Rusiyasının rəsmi statistik sənədləri əsasında hazırlanan "Toplu materiallar"dan[4] da istifadə olunmuşdur.

Dissertasiyada Rusiya imperator Coğrafiya Cəmiyyəti Qafqaz bölməsinin "Xəbərlərində"[5] diyarın əhalisi, siyasi coğrafiyası, dini həyatı və s. ilə bağlı əks olunan məlumatlardan da istifadə olunmuşdur.

Yelizavetpol (Gəncə) quberniyasının statistik komitəsinin nəşr etdirdiyi "Yelizavetpol quberniyasının yaddaş kitabçasında (1910-1914-cü illər)"[6] Yelizavetpol Quberniyasının, o cümlədən Qarabağ regionuna daxil olan qəzaların inzibati idarəetmə sistemi, kənd əhalisinin sosial-iqtisadi vəziyyəti, Quberniya üzrə əhalinin siyahısı və milli yerləşmə xüsusiyyətləri və qəza kəndlərinin idarəçilik sistemi haqqında, tədqiqatımız üçün olduqca əhəmiyyətli məlumatlar vardır.

1881-ci ildə Tiflisdə nəşrə başlayan "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu"nda (SMOMPK)[7] regionun coğrafiyası, ədəbiyyatı, etnoqrafiyası, mədəniyyəti, adət-ənənəsi haqqında məlumatlar verilmişdir.

Dissertasiya tədqiq olunarkən o dövr rus imperiyasının nəşr etdirdiyi "Qanunlar külliyatı"ndan[8] da istifadə olunmuşdur. XIX əsrin ortaları– XX əsrin əvvəllərini əhatə edən bu nəşrlərdə, Qarabağ regionunun qəzalarının

---

[1] AMEA Tarix İnstitutunun Elmi Arxivi; ARDTA; ARPİİSSA; NMR DA.

[2] Кавказский календарь на 1855, 1897, 1901, 1907, 1909, 1912, 1914, 1915, 1917 гг.

[3] Свод статистических данных о населении Закавказского края извлеченных из посемейных списков 1886 г. Прил. 4., Тифлис: 1893.

[4] Свод материалов по изучению экономического быта государственных крестьян Закавказскаго края. Том 2. 1887; Том 5. 1888 .

[5] Известия Кавказскаго Отдела Императорского Русского Географического Общества. Том XIV. 1901; Том XVII. 1904; Том XXM. 1917.

[6] Памятная книга Елисаветпольской губернии на 1910 год. Тифлис: 1910; Памятная книга Елисаветпольской губернии на 1914 год. Тифлис: 1914.

[7] Сборник материалов для описания местностей и племен Кавказа. 1891; Том 27. 1900; 1904; Том 41. 1910; Том 44. 1915 г.

[8] Полное Собрание Законов Российской Империи. Собрание второе. Т. 55, отделение первое. 1880 год. Санкт-Петербург: 1884.

elm-təhsil sistemini, maarif sahəsini, mətbuat sistemini tənzimləyən hüquqi sənədlər normativ hüquqi aktlar, əmrlər və sərəncamlar öz əksini tapmışdır.

Tədqiq olunan dövrdə bölgənin maarif sisteminin öyrənilməsində mühüm əhəmiyyət kəsb edən mənbələrdən biri də Çar Rusiyasının Xalq maarif nazirliyinin nəşr etdirdiyi jurnaldır[1]. Bu rəsmi dərgidə bölgənin maarif, elm, təhsil sistemi və həmçinin mədəni həyatı haqqında ayrı-ayrı müəlliflərin məqalələri dərc edilmişdir.

Mövzu işlənərkən Qafqaz arxeoqrafiya komissiyasının topladığı aktlardan[2] da istifadə edilmişdir. Bu aktlarda Qafqaz xalqlarının tarixi, adət-ənənəsi və bəzi hallarda tədris sahəsində baş verən neqativ hallarla bağlı məlumatlar verilmişdir.

Dövrün tədqiqində, Qafqazın mülki işlər üzrə rəisi general-adyutant knyaz Dondukov-Korsakovun tapşırığı əsasında E.Veydenbaum tərəfindən hazırlanan Qafqaza dair soraq kitabçasında[3] Qafqaz vilayətinin sərhədləri, ərazisi, inzibati bölgüsü, əhalisinin sosial və etnik tərkibi nəzərdən keçirilmişdir. Problemin işıqlandırılmasında mühüm rola malik olan mənbələrdən biri də Yelizavetpol quberniyasının müxtəlif illərə aid olan icmallarıdır[4]. Bu icmallarda quberniya əhalisinin sosial-iqtisadi vəziyyəti, təsərrüfat sahələri, sənaye və ticarəti, istehsal müəssisələri haqqında dəqiq məlumatlar öz əksini tapmışdır.

XX əsrin əvvəllərində Qarabağ regionunda baş verən ictimai-siyasi vəziyyət haqqında 1905-ci ildə Ə.Hüseynzadə və Ə.Ağayevin redaktorluğu ilə nəşr olunan "Həyat" və o dövr nəşr edilən "Азербайджан", "Каспий", "Баку", "Закавказье", "Кавказское хозяйство"[5] qəzetlərində əks olunan informasiya xarakterli məlumatların əhəmiyyəti olduqca böyükdür. Bu qəzetlərdə Qarabağ, İrəvan, Naxçıvan və s. kimi azərbaycanlıların yaşadıqları ərazilərdə ictimai-siyasi vəziyyət, azərbaycanlılara qarşı törədilən erməni vəhşilikləri haqqında məlumatlar verilmişdir.

Qafqaz canişinin Baş İdarəsinin Arxivində toplanmış materiallar[6] da XIX– XX əsrin əvvəli Qarabağ regionu ərazilərində baş verən ictimai-siyasi hadisələr, ermənilərin bölgənin müsəlman əhalisinə qarşı törətdikləri cinayətlər haqqında məlumatlar əldə etməyə imkan verir.

**Tədqiqat işinin məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi XX əsrin əvvəllərində Şimali Azərbaycanın Qarabağ regionunun ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının əsas istiqamətlərini müəyyən etmək, bu dövrdə Çar Rusiyasının tərkibində olan Şimali Azərbaycanın Qarabağ regionunda çar hökumətinin dəstəyi ilə erməni millətçilərinin riyakar planla-

---

[1] Журнал Министерства народного просвещение. Указатель статей помещенных в неофициальной. Часть LXIV. Отд. 1. 1849; 1894; 1903; 1906; 1908 гг.

[2] Акты, собранные Кавказской археографической комиссией (далее –АКАК), т. II., 1868; Т. 5., 1873; Т. 1-Х. 1866.

[3] Путеводитель по Кавказу. Составил Е.Вейденбаум. Тифлис: 1888.

[4] Обзор Елисаветпольской губернии за 1900, 1914, 1916 гг.

[5] Газ. "Həyat", "Азербайджан", "Каспий", "Баку", "Закавказье", "Кавказское хозяйство".

[6] Всеподданнейшая записка по управлению Кавказским краем графа И.И.Воронцова-Дашкова. Государственная типография, 1907.

rını və onların həyata keçirilmə üsullarını açıb göstərməkdir. Bu məqsədin həyata keçirilməsi isə konkret olaraq aşağıdakı vəzifələrin yerinə yetirilməsini zəruri etmişdir:

- Ayri-ayri tarixi dövrlərdə Qarabağ regionunun siyasi coğrafiyasını və inzibati ərazi bölgüsünü təhlil edərək XX əsrin əvvəllərində Qarabağ regionunun tarixi coğrafiyasını müəyyən etmək;
- 1905-1918-ci illərdə Qarabağ regionunda ermənilərin azərbaycanlı əhaliyə qarşı törətdiyi kütləvi qırğınları və soyqırımı araşdırmaq;
- XX əsrin əvvəllərində böyük dövlətlərin Cənubi Qafqaz siyasəti və Qarabağ problemindən yararlanmaq cəhdlərini təhlil etmək;
- XX əsrin əvvəllərində Qarabağ regionunda Çar Rusiyasının həyata keçirdiyi etnik siyasəti müqayisəli şəkildə araşdırmaq və bu bölgədə mövcud demoqrafik vəziyyəti müəyyən etmək;
- XX əsrin əvvəllərində Qarabağ regionunun sosial-iqtisadi vəziyyətini təhlil etmək, regionun kənd təsərrüfatı sahələrinin və sənaye müəssisələrinin dövr üçün mövcud vəziyyətini araşdırmaq;
- XX əsrin əvvəllərində Qarabağın mədəni həyatını araşdıraraq regionun təhsil, ədəbiyyat, incəsənət və memarlığını təhlil etmək.

**Dissertasiya işinin metodoloji əsası.** Dissertasiya işində qarşıya qoyulan məsələləri tədqiq edərkən, mövcud fakt və hadisələrin müqayisəli təhlilinə üstünlük verilmiş, nəzəri və statistik yanaşma metodu əsas götürülərək tarixilik prinsipinə əməl olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin müxtəlif tərəfləri və istiqamətləri ilə bağlı istər vətən tarixşünaslığında, istərsə də əcnəbi tarixşünaslıqda elmi əsərlər yazılmışdır. Lakin qeyd olunan dövrdə Azərbaycanın Qarabağ regionunun siyasi, sosial-iqtisadi və mədəni həyatı ayrılıqda konkret tədqiqat obyekti olmamışdır. "Azərbaycanın Qarabağ regionu XX əsrin əvvəllərində" adlı tədqiqat mövzusu Azərbaycan tarixşünaslığında bu səpkidə ilk dəfə tədqiqata cəlb olunmuşdur.

Bu dissertasiyada:

- Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq, XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ regionunun siyasi, sosial-iqtisadi və mədəni tarixi ümumiləşmiş, əlaqəli və müqayisəli şəkildə tədqiqata cəlb olunur;
- Tədqiq edilən dövrə aid müxtəlif qanunvericilik sənədləri, arxiv materialları, rəsmi statistik materiallar təhlil edilir;
- Ayrı-ayrı tarixi dövrlərdə Qarabağ regionunun siyasi coğrafiyası və inzibati ərazi bölgüsü təhlil olunur və XX əsrin əvvəllərində bölgənin siyasi hüdudları müəyyən edilir;
- XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ regionunun Cənubi Qafqazdakı siyasi, strateji mövqeyi və rolu geniş şəkildə işıqlandırılır;
- XX əsrin əvvəllərində Qarabağ regionunda çar Rusiyasının həyata keçirdiyi demoqrafik siyasət müqayisəli şəkildə araşdırılır və bu bölgədə mövcud demoqrafik vəziyyət müəyyən edilir;
- 1905-1918-cı illərdə Qarabağ regionunda ermənilərin azərbaycanlı əhaliyə qarşı törətdiyi kütləvi qırğınlar və soyqırımı cinayətləri tarixi araş-

dırılır;

- XX əsrin əvvəllərində böyük dövlətlərin Cənubi Qafqaz siyasəti və Qarabağ problemindən yararlanmaq cəhdləri təhlil edilir;
- XX əsrin əvvəllərində Qarabağ regionunun sosial-iqtisadi vəziyyəti ətraflı öyrənilir, regionda kənd təsərrüfatı sahələrinin inkişafı və sənaye müəssisələrinin yaranmasının inkişaf xüsusiyyətləri araşdırılır;
- XX əsrin əvvəllərində Qarabağın mədəni həyatı tədqiq olunur.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya mövzusundan və onun materiallarından ali məktəblərdə, seminar və məşğələlərin keçirilməsində, tarix müəllimləri üçün metodik vasitələrin hazırlanmasında istifadə oluna bilər. Həmçinin ali məktəblərdə Azərbaycan tarixi kursunun tədrisində, Azərbaycanın Qarabağ bölgəsinin tarix və mədəniyyətinin öyrənilməsi haqqında ixtisas kurslarının aparılmasında istifadə edilə bilər.

Dissertasiya və onun nəticələri XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ regionunun ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı haqqında məlumatlar əldə etmək istəyən tarixçilər, mütəxəssislər və oxucular üçün faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının A.A. Bakıxanov adına Tarix İnstitutunun "Qarabağ tarixi" şöbəsində yerinə yetirilmişdir. Tədqiqat işinin məzmunu müəllifin ölkəmizdə, o cümlədən xarici jurnallarda nəşr olunan elmi məqalə və konfrans materiallarında öz əksini tapır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, on yarımfəsil, nəticə, istifadə olunmuş mənbə və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılmış, xronoloji çərçivəsi göstərilmiş, problemin öyrənilmə səviyyəsi, tarixşünaslığı və mənbə bazası şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmişdir. Həmçinin, tədqiqatın metodoloji əsası, elmi yeniliyi və əməli əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın "**Azərbaycanın Qarabağ regionunda ictimai-siyasi vəziyyət"** adlı birinci fəsli üç yarımfəsildən ibarətdir. **"Qarabağ regionunun siyasi coğrafiyası, inzibati ərazi idarəetmə sistemi"** adlanan birinci yarımfəslində ayrı-ayrı dövrlərdə Qarabağ regionunun tarixi coğrafiyası, XIX-XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən regionda aparılmış inzibati, ərazi bölgüsü tədqiq edilmiş və Qarabağın siyasi coğrafiyası müəyyən edilmişdir.

Bildiyimiz kimi çar Rusiyası imperiyası tərəfindən XIX əsrin birinci yarısında Şimali Azərbaycanı işğal edildikdən sonra, onun tərkib hissəsi olan Qarabağ regionunda da inzibati ərazi bölgüsü həyata keçirilmişdi.

O dövr Şimali Azərbaycanın Qarabağ regionunun ümumi ərazisini Yelizavetpol (Gəncə) quberniyasının tərkibində olan Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarının əraziləri təşkil etmişdir.

Belə ki, 1897-ci ilin məlumatlarına görə Şuşa qəzası 1841-ci ildə Xəzər vilayətinin tərkibində təsis edilmişdir. 1846-cı ildən Şamaxı, 1859-cu ildən Bakı, 1867-ci ildən isə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində olmuşdur. Şuşa qəzası Mığrı, Kəbirli, Zəngəzur, Cavanşir, Çiləbörd, Vərəndə sahələrinə bölünürdü. Çarın 1867-ci il dekabr tarixli fərmanına əsasən, Zəngəzur və Cavanşir sahələri Şuşa qəzasından ayrılıb müstəqil qəzalara çevrildilər[1]. Zəngəzur qəzası 1873-cü ildə Yelizavetpol quberniyasının tərkibində təsis edildi. Qəzanın mərkəzi Gorus məntəqəsi idi[2]. 1883-cü ildə Yelizavetpol quberniyasında 2 qəza Cəbrayıl qəzası (mərkəzi Cəbrayıl məntəqəsi) və Cavanşir qəzası (mərkəzi Tərtər məntəqəsi) yaradıldı. Bu inzibati bölgü 1921-ci ilə qədər dəyişilməmişdir[3].

1909-cu ildə Quberniya müdiriyyəti tərəfindən, Qarabağın qəzalarında yerləşən kəndlər, kənd cəmiyyətləri və polis məntəqələri nəzdində yenidən birləşdirilməyə başladı. Bu iş 1910-cu ildə başa çatdırıldı[4]. 1910-cu ildə Şuşa qəzasında 4 kənd cəmiyyəti, Zəngəzur qəzasında 4 kənd cəmiyyəti, Cavanşir qəzasında 3 kənd cəmiyyəti, Qaryagin (Cəbrayıl) qəzasında 2 kənd cəmiyyəti yaradıldı[5] .

Rus imperiyası tərəfindən həyata keçirilən inzibati bölgü nəticəsində Qarabağ regionunun bütün qəzalarının başçıları və polis məntəqələrinə təyin olunan müvəkkillər xristian mənşəli şəxslər, Şuşa qəzasına V.İ.Brılkin, Zəngəzur qəzasına N.Pivaroviç, Cavanşir qəzasına Z.M.Lorçenko, Qaryagin qəzasına Q.Z.Kipiyani[6], polis məntəqələrinə Şuşada D.A.Yaraşenko, Zəngəzurda A.Qrozdov, Qaryagində A.İ.Zavalişin, Cavanşirdə isə S.İ.Maevski[7] təyin edilmişdi.

Göründüyü kimi Qarabağın dörd qəzasının 4-də də qəza başçıları və qəzaların məntəqə müvəkkilləri ərazidə yaşayan əhalinin ən az faizini təşkil edən slavyan və gürcü mənşəli xristian məmurlar təyin edilmişdi.

Birinci fəslin **“1905-1918-cı illərdə Qarabağ regionunda ermənilərin separatçı fəaliyyəti və azərbaycanlılara qarşı soyqırımı”** adlanan ikinci yarımfəslində XX əsrin əvvəllərində şovinist-millətçi erməni partiyalarının maddi və mənəvi dəstəyi, erməni kilsələrinin birbaşa rəhbərliyi, həmçinin Rusiya imperiyasının hakim dairələrinin dəstəyi ilə ermənilərin Azərbaycanın Qarabağ regionunda törətdiyi kütləvi qırğınlar və soyqırımı araşdırılır.

XX əsrin əvvəllərində Qarabağ regionunda baş verə biləcək narazılıqları əvvəlcədən nəzərə alan rus hökuməti bir sıra tədbirlər görməyə başladı. Çünki, o dövr milli oyanışın və ictimai-siyasi hərəkatın başlıca mərkəzlə-

---

1 Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Z.M.Bünyadovun redaktəsi ilə. Bakı: 1990, s.38; Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: 2006, s.124.

2 Сборник материалов для описания местностей и племен Кавказа. Тифлис: 1891, s.182.

3 Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Z.M.Bünyadovun redaktəsi ilə. Bakı: 1990, s.38; Piriyev V.Z. Azərbaycanın tarixi-siyasi coğrafiyası. Bakı: 2006, s.125.

4 Памятная книга Елисаветпольской губернии на 1910 год. Тифлис: 1910, с.1.

5 Yenə orada, s.3-4.

6 Памятная книга Елисаветпольской губернии на 1910 год. Тифлис: 1910, с.20.

7 Памятная книга Елисаветпольской губернии на 1914 год. Тифлис: 1914, с.29-33.

rindən biri Şuşa şəhəri idi. Burada bütün siyasi partiya və ictimai təşkilatların özəkləri fəaliyyət göstərirdi[1].

Bu dövrdə çar hökuməti 1903-1904-cü illər ərzində terrorçu Vazgenin rəhbərliyi ilə Şuşa şəhərində və onun ətraf kəndlərində 500 nəfərdən çox Azərbaycan türkünün qətlə yetirməsinə[2] şərait yaratmışdı.

1905-1906-cı illərdə baş verən hadisələrdə birbaşa çar hökumətinin geosiyasi maraqlarının olması ilə bağlı, Azərbaycan tarixçisi C.Zeynaloğlu yazır: "...Rusiya hökuməti müsəlmanların bu qəflətindən istifadə edib, Peterburqdan xüsusi surətdə yüz otuz xəfiyyə məmuru göndərərək, türklər ilə ermənilər arasında icra etdiyi propaqanda ilə birini digəri əleyhinə silah işlətməyə təşviq edərək iki millətin birin digərinə qırdırdı"[3].

Bu hadisələrin şahidi olmuş M.M.Nəvvab dolğun məlumat verərək yazır: "...1905-ci ilin avqust ayında ruslar və ermənilər Yuxarı Qarabağda çaxnaşma yaratmaq üçün bir neçə azərbaycanlını və rus millətindən olan vəzifəli şəxsi qətlə yetirdilər"[4].

1905-1906-cı illərdə erməni müəllifi S.Zavaryan etiraf edərək yazır ki, Qarabağın qəzalarında baş verən erməni-müsəlman münaqişəsi nəticəsində, Şuşa qəzasında 12, Cavanşir qəzasında 15, Cəbrayıl qəzasında 5, Zəngəzur qəzasında 43, cəmi 75 müsəlman kəndi dağıdılmışdı[5].

Bu qırğınlarla bağlı o dövrün mənbələrinin birində 1905-ci il dekabrın 26-da ermənilərlə toqquşma nəticəsində Zəngəzur qəzasının Ağudi kəndindən 70 nəfər tatarın (türk) qətlə yetirilməsi, 30 evin yandırılması, ermənilərin 278 nəfər Dərəbas kəndinin "tatarlarını" (türkləri) öldürdüyü[6] xəbəri verilmişdi.

Bu dövrdə baş verən qırğınların qarşısının alınmasında 1906-cı ilin avqust-sentyabr aylarında yaradılmış "Difai" partiyasının[7] böyük xidmətləri olmuşdu. Sonralar 1907-ci ilin martında "Difai" partiyasının Qarabağda "Qarabağ Birlik Məclisi" adlı bölməsi yaradıldı[8].

Bu kütləvi qırğınlar 1917-1918-ci illərdə də, ermənilər tərəfindən törədilmişdir. 1918-ci ildə AXC-nin Xarici İşlər Nazirliyi Fövqəladə İstintaq komissiyasının üzvü Mixaylovun məruzəsi əsasında Qarabağın Şuşa, Zəngəzur, Cavanşir və Cəbrayıl qəzalarında erməni quldur dəstələrinin hücumlarından zərər çəkmiş Azərbaycan kəndlərinə dəymiş zərərin miqdarını 100 milyon (mln.) manat məbləğində müəyyən edilmişdir[9].

Rəsmi sənədlərə görə 1918-ci ildə erməni terror dəstələri tərəfindən

---

[1] ARDTA: F. 62, siy.1, iş 39, v. 9

[2] Əroğlu Ə. Azərbaycanda erməni-daşnak terrorunun xronologiyası. Bakı: 2009, s.9.

[3] Zeynaloğlu C. Müxtəsər Azərbaycan tarixi. Bakı: 1992, s.107

[4] Mir Möhsün Nəvvab. 1905-1906-cı illərdə erməni-müsəlman davası. Bakı: 1993, s.24.

[5] Заварян С. Экономические условия Карабаха и голод 1906-1907 г. Перевод с армянского. Санкт-Петербург: 1907, s.61.

[6] "Каспий", 1906, 13 января

[7] ARDTA: F. 62, siy.1, iş 59, v. 151-153

[8] Багирова И.С. Политические партии и организации Азербайджана в начале XX века. 1900-1917. Баку: 1997, s. 173-174;

[9] ARDTA: F. 970, siy. 1, iş 161, v. 1-12; AMEA Tarix İnstitutunun Elmi Arxivi: inv. 1207, v. 11-12

Qarabağın üç qəzasında 150 kənd dağıdılmış, 13056 nəfər Azərbaycan türkü öldürülmüş, 304 nəfər diri-diri yandırılmışdı[1]. Qarabağın digər qəzası Zəngəzurda 115 kənd yerlə-yeksan edilmiş, 3257 kişi, 2276 qadın, 2196 uşaq olmaqla, 10068 nəfər Azərbaycan türkü qətl edilmişdi[2].

1918-ci ilin başlanğıcında ermənilərə dəstək verən Rusiya Milli Şurası tərəfindən Qafqazın xristian əhalisinə müraciəti olunmuş, martın 11-dən 18-ə qədər 19-25 yaş arası bütün rus gəncləri səfərbərliyə alınmışdır. Səfərbərlik 31 marta qədər davam etdirilmişdi[3]. Yəni 1918-ci il 31 mart soyqırımı törədildikdən sonra səfərbərlik dayandırılmışdı.

Ermənilər 31 avqust 1918-ci il tarixdə keçirilən Beynəlxalq məhkəmədə ötən bir il ərzində Cənubi Qafqazda 400 min Azərbaycan türkünü, 120 min gürcünü, 22 min ləzgini, 15 min kürdü qətlə yetirdiklərini etiraf etmişlər[4].

O dövrdə ermənilərə hərbi-siyasi dəstək verən qüvvələr törətdikləri soyqırımları ört-basdır etmək üçün "erməni soyqırımı" ilə dünyada təbliğat aparmış, törətdikləri vəhşilikləri türklərin ermənilərə qarşı törətdiyi vəhşilik kimi qələmə verməyə çalışmışlar.

Birinci fəslin üçüncü yarımfəsli **"Böyük dövlətlərin Cənubi Qafqaz siyasəti və Qarabağ problemi"**adlanır. Bu yarımfəsildə Cənubi Qafqazda XX əsrin başlanğıcından çar Rusiyasının, İngiltərənin, Fransanın və ABŞ-ın ermənilərə verdikləri hərbi-siyasi dəstək araşdırılmışdı.

Bu dəstəyi "Daşnaksutyun"un o vaxtkı liderlərindən biri olan D.Kaçaznuni təsvir edərək yazır: "Müharibənin müttəfiqlərin tam qələbəsi ilə başa çatacağına, Türkiyənin məğlubiyyətə uğramalı olacağına, parçalanmaya məruz qalacağına və nəhayət, yerli ermənilərin azad olacağına şübhə etmirdik. Biz sözsüz üzümüzü Rusiyaya çevirmişdik... Biz əmin idik ki, çar hökuməti sədaqətimizə, səylərimizə və köməyimizə görə bizə Türkiyənin erməni vilayətlərindən və Cənubi Qafqaz Ermənistanından ibarət Ermənistan muxtariyyətini bəxş edəcəkdir"[5].

O dövrdə Rus imperiyası ilə yanaşı Qərb dövlətlərinə də xidmət edən daşnaklar barədə "Şərqdə işğalçılıq siyasəti yürüdən xarici kəşfiyyatın agentləri satqın, yaltaq və xain erməni daşnaklarıdır"[6] deyən RSFSR xarici işlər komissarı G.Çiçerindən fərqli olaraq, 1912-ci ildə Rusiya imperiyası xarici işlər naziri S.D.Sazonovun Nazirlər Kabinetindəki məruzəsində "Rusiyanın məqsədi, nəyin bahasına olursa-olsun, türklər və bizim tatarlar (Azərbaycan türkləri) arasında olan səddi – Ermənistanı yaratmaqdır"[7] söyləməklə, Rusiyanın ermənilərlə bağlı plan və məqsədlərini açıqlamışdır.

---

[1] Əroğlu Ə. Azərbaycanda erməni-daşnak terrorunun xronologiyası. Bakı: 2009, s.29.

[2] Махмудов Я.М. Геноцид тюрко-мусульманского населения Азербайджана в 1918-1920 годах. Баку: 2015, с. 48; Azərbaycan tarixi sənədlər və nəşrlər üzrə. Bakı: 1990, s.205-206.

[3] ARPİİSSA: F. 276, siy. 1, 7, iş 212, v. 1

[4] Əroğlu Ə. Azərbaycanda erməni-daşnak terrorunun xronologiyası. Bakı: 2009, s.26

[5] Nəcəfov B.İ. Düşmənin iç üzü. XIX-əsrin sonu-XX əsrin əvvəllərində Türkiyə və Cənubi Qafqazda erməni terrorizminin tarixi. I hissə. Bakı: 2007, s.226.

[6] "Dərələyəz" qəz., Bakı: 20 yanvar 2015-ci il, №01 (45), s.4.

[7] Вердиева Х.Ю. "Родословная" армян и их миграция на Кавказ с Балкан. Баку: 2003, s.74.

Bu dövrdə Avropa ölkələrində "Erməni məsələsi"nin siyasət aləminə daxil olunması təmin edilmiş, erməni "Daşnaksutyun" partiyasının əsas qüvvələri Cənubi Qafqaza, xüsusilə Bakıya yığılmış və onlar "Böyük Ermənistan" yaradılması üçün yeni taktikaya keçmişdilər. Rus, eləcə də ingilis, fransız ABŞ hökumətləri ilə bağlı olan və onlara xidmət edən "Daşnaksutyun" partiyası "Böyük Ermənistan" xəritəsini əllərində gəzdirərək[1], millətlər arasında, xüsusilə Azərbaycanda gərginlik yaradaraq, Azərbaycan türklərinə qarşı düşmənçiliyi daha da qızışdırmışlar.

Dissertasiyanın **"Qarabağ regionunda sosial-iqtisadi vəziyyət"** adlanan ikinci fəsli üç yarımfəsildən ibarətdir. "**Əhali və demoqrafik vəziyyət**" adlanan birinci yarımfəsildə çar Rusiyasının Cənubi Qafqazı xristianlaşdırma siyasəti nəticəsində regiona erməni əhalisinin köçürülməsi və regionda demoqrafik vəziyyəti dəyişməyə çalışması araşdırılır.

Ümumilikdə Şimali Azərbaycanın Qarabağ regionunda 1897-ci ilin siyahıyaalmasına görə 416.027 nəfər əhali yaşamışdır. 1903-cü ildə isə polis məntəqələrinin verdiyi məlumata görə Qarabağ regionunda 498.218 nəfər[2] 1917-ci ilin statistik məlumatlarına görə isə Şimali Azərbaycanın Qarabağ regionunun əhalisinin sayı 563.962 nəfər olmuşdur[3].

1914-cü ildə Azərbaycanın Qarabağ regionunun demoqrafik vəziyyətini müəyyən etməkdə bizə qəzalar üzrə bağlanmış nikahların, doğulmuş uşaqların, vəfat etmiş insanların sayı haqqındakı statistik məlumatlar kömək edir. Bu məlumatlarda göstərilir ki, bir il müddətində Qarabağ regionunda 12978 uşaq doğulmuş, 8277 nəfər isə vəfat etmişdir. Yəni bir il müddətində Qarabağ regionu üzrə 4701 nəfər[4] artım olmuşdur.

1917-ci ilin statistikasına görə, Qarabağ regionunda yaşayan 574194 nəfərdən 317.861 Azərbaycan türkləri, 243.627 ermənilər yerdə qalanı başqa xalqlar idi[5]. 1915-ci ildə əhalinin ən çox qarışıq olduğu Şuşada əhalinin 46 faizini müsəlman, 54 faizini erməni, Zəngəzurda 55 faizini müsəlman, 44,3 faizini erməni, Qaryagində 74,5 faizini müsəlman, 24,9 faizini erməni, Cavanşirdə 67,5 faizini müsəlman və 31,6 faizini ermənilər təşkil etmişdir[6].

1917-ci ilin statistik məlumatlarına istinad edərək müəyyən etmək olur ki, Qarabağ regionunda imperiyanın xristianlaşdırma siyasətinə rəğmən hələ də regionun Zəngəzur, Cavanşir, Cəbrayıl qəzalarında əhali nisbəti Azərbaycan türklərinin xeyrinə olmuşdur. Ermənilər yalnız Qarabağın dörd qəzasından birində – Şuşa qəzasının müsəlman əhalisini üstələmiş, əhalinin 58 faizini[7] təşkil etmişlər.

Dissertasiyanın ikinci fəslinin **"Aqrar münasibətlər və kənd təsərrü-**

---

[1] "Azərbaycan Kommunisti". Bakı, №7, 1990, s. 169-175
[2] Кавказский календарь на 1905 год Тифлис: 1904, s.31-33
[3] Щепотьев А.Л. О спорных кавказских территориях, на которые имеют права самоопределившиеся азербайджанские тюрки // Изв. АН АзССР. История, философия и право. 1990, №2, с. 42-62.
[4] Кавказский календарь на 1915 год. Тифлис: 1914, s.215-216.
[5] Кавказский календарь на 1917 год. Тифлис: 1916, c.190-197.
[6] Nəsibzadə N.L. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı: 1996, s.107.
[7] Кавказский календарь на 1897 год. Тифлис: 1896, s.48-61.

**fatı"** adlanan ikinci yarımfəslində Qarabağ regionunda kənd təsərbrüfatının əkinçilik, maldarlıq, qoyunçuluq, atçılıq, bağçılıq və s. sahələri ilə yanaşı, müstəmləkəçi Rus imperiyasının yerlərdə həyata keçirdiyi torpaq islahatları ilə bağlı məlumatlar öz əksini tapmışdı. Bildiyimiz kimi "1870-ci il islahatı kəndlilərə mülkədarlarla "qarşılıqlı razılıq" əsasında öz pay torpaqlarını ödənc etmək ixtiyarını vermişdi... lakin bu ödənc pulu Yelizavetpol quberniyasında Rusiyadakından 17 dəfə çox idi"[1]. Torpaqların satın alınması üçün Qarabağ regionunun qəzalarında yalnız Şuşa şəhərində bir bankın şöbəsi, "qarşılıqlı kredit cəmiyyəti" fəaliyyət göstərirdi[2]. Bu amillər əhalinin torpaq satın almasına imkan vermirdi.

Bununla bağlı "1902-ci ildə kənd təsərrüfatı istehsalının ehtiyaclarını öyrənən Yelizavetpol quberniya komitəsinin üzvü K.B.Kleşçinski etiraf edərək göstərmişdi ki, quberniyada indiyə kimi sahibkar kəndlilərindən bir nəfəri belə torpaq pulunun son dərəcə baha olması üzündən öz pay torpağını satın ala bilməmişdir"[3].

III Dövlət dumasında çıxış edən Azərbaycan nümayəndəsi Ə.Xasməmmədov demişdir ki, yerlərdə həyata keçirilən islahatlar kəndliləri torpaqdan məhrum etmiş və torpaqsız kəndlilərin sayını artırmışdır[4].

Bu dövrdə təkcə Şuşa şəhərində var-dövləti əlindən çıxmış kəndlilərin sayı 38 min nəfərə qədər olmuşdu[5].

Çar Rusiyası tərəfindən həyata keçirilən islahatlara baxmayaraq Azərbaycanın, həmçinin, Qarabağın sahibkar kəndliləri 1912-ci il islahatına qədər öz ağalarından asılı vəziyyətdə qalmalı olmuşdu[6].

1912-ci il dekabr qanununa görə 1913-cü ilin yanvarın 1-dən ödənc əməliyyatını başlamaq üçün mülklərin siyahısı tərtib edilmişdir. Qarabağ regionunun qəzalarında Şuşada 165, Cavanşirdə 162, Zəngəzurda 156, Qaryagində isə 102 mülkə aid edilmişdir[7].

1913-cü il yanvarın 1-dən kəndlilər verilmiş pay torpaqları üçün verdikləri malcəhət və bəhrə mükəlləfiyyəti əvəzinə ödənc pulu ödəmişdi. Mülkədarlar isə sabiq pay torpaqlarından gələn gəliri nəğd pulla dövlət xəzinəsindən almağa başlamışdılar.

Dissertasiyanın ikinci fəslinin **"Sənaye müəssisələrinin yaranması"** adlanan üçüncü yarımfəslində araşdırmalar göstərir ki, XX yüzilliyin əvvəllərində, iqtisadi inkişafın tələblərinə uyğun olaraq, kənd təsərrüfatı sahələrinin inkişafı sənaye müəssisələrinin yaranmasına şərait yaradırdı. Bu dövrdə Qarabağ regionunda ipək emalı müəssisələri, pambıq fabrikləri, araq, konyak zavodları və s. şəxsi təsərrüfatlarla bərabər səhmdar cəmiyyətlərinin nəzdində də yaranırdı.

---

[1] Talıbzadə İ.A. Azərbaycanda 1912-ci il aqrar islahatının həyata keçirilməsi. Bakı: 1965, s.6.
[2] Əzizov T.Ə. Azərbaycan XX əsrin əvvəllərində. Bakı: 1997, s.17.
[3] Talıbzadə İ.A. Azərbaycanda 1912-ci il aqrar islahatının həyata keçirilməsi. Bakı: 1965, s.7.
[4] Yenə orada, s. 11.
[5] Орест Семин. Великая годовщина. Аграрный вопрос и крестьянская (крепостная) реформа на Кавказе: исторический очерк. Киев: 1911, с.27.
[6] XX əsr Azərbaycan tarixi. II cild. Bakı: 2009, s.30.
[7] Talıbzadə İ.A. Azərbaycanda 1912-ci il aqrar islahatının həyata keçirilməsi. Bakı: 1965, s.53.

XX əsrin əvvəllərində Rusiya iqtisadiyyatını bürüyən iqtisadi böhran Azərbaycanın yüngül sənayesinə az təsir etsə də, təkcə 1905-ci il hadisələri zamanı, Şuşa ərazisində ipək emalı müəssisələrinin sayı 23-dən 12-yə enmişdi[1]. Bu dövrdə Azərbaycanın Qarabağ regionunda 27 ipək emalı müəssisəsindən 22-si Şuşa qəzasında, o cümlədən 3-ü Şuşa şəhərində, 5 isə Cəbrayıl və Cavanşir qəzalarında idi[2].

Bu fabriklərin bəziləri maşınla, bəziləri isə buxar qazanları ilə təchiz edilmişdi. Bütün fabriklər o dövr üçün müasir olan texnika əsasında qurulmuşdu.

XX əsrin əvvəllərində. Qarabağ regionunda pambıqçılıq da inkişaf edirdi. Şuşa qəzasında fəaliyyət göstərən "Qafqaz pambığı" səhmdar cəmiyyəti, Fərrux bəy Vəzirova məxsus idi və Hindarxında yerləşirdi[3]. Səhmdar cəmiyyətinin təsisindən əvvəl torpaq almaq üçün Qarabağda X.Usmiyevlə və 1912-ci il iyunun 14-də Vladiqafqaz şəhərində Xasay xanla bağlanan müqavilələrin şərtlərinə görə İ.F.Skrepinski 2 mülkü satın almışdı. Birinci mülk 1907-ci ildə Musa Nağıyevə girov verilmişdi. Ona görə də, İ.F.Skrepinski M.Nağıyevlə danışaraq, onun girov pulunu faizlə birlikdə ödədikdən sonra alqı-satqı işini başa çatdırmışdı[4].

Yuxarıda verilmiş faktlardan da göründüyü kimi, çar Rusiyası müstəmləkəçilik siyasətini həyata keçirir, Şimali Azərbaycanın Qarabağ regionunun qəzalarında yerli sahibkarları sıxışdıraraq onların yerinə çarizmin aqrar islahatlarda həyata keçirdiyi layihələri dəstəkləyən şəxsləri gətirirdi. Beləliklə rus imperiyası xammal bazası ilə yanaşı, sənaye müəssisələrində istehsal olunan malların nəzarətini də asanlıqla ələ keçirirdi.

Dissertasiyanın üçüncü fəsli **"Qarabağ regionunun mədəni həyatı"** adlanır. Bu fəsil dörd yarımfəsildən ibarətdir. "**Təhsil"** adlanan birinci yarımfəsildə çar Rusiyasının təhsil sistemində həyata keçirdiyi islahatlar öz əksini tapmışdı. Şimali Azərbaycan Rus imperiyası tərəfindən (1828-ci il) işğal edildikdən sonra imperiya bu ərazilərdə idarəçilik sisteminin qurulması ilə bağlı bir çox çətinliklərlə qarşılaşdı ki, bunun başlıca səbəbi yerlərdə kadr çatışmazlığı idisə, digər səbəb isə yerli əhalinin, eləcə də Qacarlar və Osmanlı dövlətlərindən Cənubi Qafqaza köçürülüb gətirilmiş ermənilərin böyük bir qisminin rus dilini bilməməsi idi.

Bununla bağlı Rusiya Xalq Təhsil Nazirliyinin jurnalında verilmiş məlumatda göstərilir ki, Çar Rusiyasının Tiflis quberniyasına təhkim etdiyi, zavod sahibləri və işçilərin qarşılıqlı münasibətlərini tənzimləyən Qulişambarov ermənilərlə bağlı yuxarı dairələrə yazırdı: "Buraya İran və Türkiyədən köçürülən qara fəhlə kimi zavodlarda çalışan ermənilər rus dilini bilmirlər. Bunları başa salmaq üçün hər dəfə ancaq tərcüməçi dalınca qaçmalısan. Bu ermənilər zavod işlərini bacarmamaqla yanaşı, həm də çox pis işlə-

---

[1] Məmmədov N.R. Azərbaycanın Şuşa qəzası 1900 -1917-ci illərdə. Bakı: 2005, s.28.
[2] Vəliyev T.T., Məmmədov F. İnqilab barrikadalarında. Bakı: 1987, s.66.
[3] XX əsr Azərbaycan tarixi. II cild. Bakı: 2009, s.16.
[4] Социально-экономические и политические предпосылки социалистической революции в Азербайджане. Баку: 1983, s. 57-58

yirlər. Həmişə onlara nəzarət etmək lazımdır"[1].

Bildiyimiz kimi XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ regionunda təhsil sisteminin vəziyyəti qənaətbəxş deyildi. Bununla bağlı o dövr Qarabağ maarifçilərindən S.Vəlibəyov yazırdı: "Hər bir dövlətin və xalqın maddi vəziyyəti... maarifdən asılıdır. Maarif... xalqda zəhməti səmərəli etməyə tələbat yaradır, mövhumatdan azad edir, yerin təbii zənginliklərindən ağıllı surətdə istifadə etməyi öyrədir"[2].

"1910-1914-cü illərdə Azərbaycanın Qarabağ regionunda xalq maarifinin inkişafında müəyyən canlanma müşahidə edilmişdir... Məktəblərin bir qismi rus-Azərbaycan məktəbləri idi... 1912-ci il "Əsasnamə"sinə görə şəhər məktəbləri ali ibtidai məktəblərə çevrildi"[3].

Qarabağ regionunda əsasını müəllimlər təşkil edən qabaqcıl ziyalıların nümayəndələri xalq təhsilinin inkişafı üçün zəruri olan biliklərin yayılmasına yönəlmiş ictimai fəaliyyətlə məşğul olurdular. Onlar tərəfindən kitabxanalar, qiraət ocaqları, dram dərnəkləri yaradılırdı[4].

Bu dövrdə Qarabağda təhsilin inkişafı ilə bağlı ziyalılar tərəfindən ana dilli məktəblər yaradılmış, ana dilində dərsliklər nəşr edilmiş və bir sıra başqa tədbirlər görülmüşdür.

Dissertasiyanın üçüncü fəslinin ikinci yarımfəsli "**Ədəbiyyat**" adlanır. XX əsrin əvvəllərində Qarabağ regionunda təhsil sisteminin zəif inkişaf etməsinə baxmayaraq, ədəbiyyatın inkişafında qərbyönümlü meyllər olduqca güclənməyə başlamışdı. Bunun təsiri altında ədəbiyyatda milli və realist-dünyəvi motivlər aparıcı mövqeyə çıxmışdı. Realist ədəbiyyatda xalq mövzusu mərkəzi yer tuturdu, maarifin təbliğinə böyük diqqət yetirilirdi.

Realist ədəbiyyatın nümayəndələri əsasən ana dilinə, onun saflığına xüsusi əhəmiyyət verirdilər[5].

Bu ədiblər əsərlərini mənəviyyatda, ictimai və əxlaqi gerçəklikdə, gerilik əleyhinə etiraz mövzusu, çar üsuli-idarəsinə qarşı açıq mübarizə motivi şəklində yazırdılar.

Qarabağın ədiblərindən olan N.Vəzirovun "Müsibəti Fəxrəddin" əsəri 1904-cü ildə Tiflisdə, sonra Bakıda, Salyanda, Şamaxıda, Lənkəranda, Qazaxda, Naxçıvanda, İrəvanda, Dərbənddə tamaşaya qoyulmuşdu. Bu əsər Azərbaycandan kənarda – Şimali Qafqazda, Orta Asiyada, Başqırdıstanda, Tatarıstanda, İranda da tamaşaya qoyulmuşdu[6].

Şimali Azərbaycanın Qarabağ regionu XX əsrin əvvəllərində dünya ədəbiyyatına N.Vəzirov, Ə.Haqverdiyev, S.Axundov, Y.V.Çəmənzəmənli, F.Köçərli kimi görkəmli ədiblər bəxş etmişdir.

Qarabağ ədiblərindən Yusif Vəzir Çəmənzəminli yazdığı əsərlərdə cəhaləti, mövhumatı, tüfeylilərı acı satira atəşinə tutaraq qamçılamış, qadın

---

[1] Мильман А.Ш. Политический строй Азербайджана в XIX-начале XX вв. Баку: 1966, s. 32.
[2] Məmmədov X. "Əkinçi"dən "Molla Nəsrəddin"ə qədər. Bakı: 1987, s.36; "İrşad" qəz., 1908, 22 may.
[3] Məmmədov N.R. Azərbaycanın Şuşa qəzası 1900 -1917-ci illərdə. Bakı: 2005, s.62-63.
[4] Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı: 2008, s.217.
[5] Yenə orada, s.244.
[6] Məmmədov N.R. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi. Bakı: 2016, s.161.

hüquqsuzluğunu, satqınlığı, yalançılığı tənqid etmişdir[1]. S.S.Axundov Azərbaycan uşaq ədəbiyyatının formalaşmasında, inkişafında milli uşaq ədəbiyyatımıza forma, məzmun, üslub yenilikləri gətirmişdir[2].

XX əsrin əvvəllərində Qarabağ regionunun ədəbiyyatı ilə yanaşı, mətbuatda da dəyişikliklər baş verirdi. Bu dövrdə Azərbaycanın Qarabağ regionunda mətbuat və nəşriyyat işləri pis vəziyyətdə idi. Bu dövrdə ilk dəfə Şuşa şəhərində iki qəzet "Şuşinskiy listok" və "Şuşa həyatı" [3] qəzetləri rus dilində nəşr edilməyə başladı Bəhs etdiyimiz dövrdə Şuşada 3 mətbəə fəaliyyət göstərirdi[4].

Dissertasiyanın üçüncü fəslinin üçüncü yarımfəsli **"İncəsənət"** adlanır. Bu dövrdə kapitalist münasibətlərin inkişafı incəsənətin tərəqqisinə öz təsirini göstərdi. Qarabağ regionunda incəsənətin ayrı-ayrı sahələri yüksək inkişaf mərhələsini yaşayırdı.

XX əsrin əvvəllərində incəsənət sahəsində Qarabağın yetişdirdiyi ən görkəmli nümayəndələrdən biri olan dahi bəstəkar Üzeyir Hacıbəyovun 1908-ci ildə yazdığı "Leyli və Məcnun" operasını plagiatorluq edərək özününküləşdirməyə çalışan erməni A.Tiqranyan 1915-ci ildə beş pərdəli "Leyli və Məcnun" adlı musiqili dram əsəri yazmış, 1936-cı ildə isə "Koroğlu" operası yazmağa çalışmış, lakin əsəri tamamlaya bilməmişdir[5].

Bu gün olduğu kimi, mənfur ermənilər XX əsrin əvvəllərində də Azərbaycan musiqisini oğurlayıb özlərininki kimi dünyaya təqdim etməyə çalışırdılar.

XIX əsrin ikinci yarısında Qarabağ regionunda təşkil olunmuş ədəbi musiqi məclisləri XX əsrin əvvəllərində Qarabağ regionunda xanəndəlik sənətinin inkişafında mühüm rol oynamışdır.

Bu musiqi məclisləri M.M.Nəvvab "Xanəndələr məclisi", Xarrat Qulunun "Musiqi məclisi" və Xurşidbanu Natəvanın "Məclisi üns"dən ("Dostluq məclisi") ibarət idi[6].

1912-1913-cü illərdə Qarabağın bir qrup musiqiçilərinin Almaniyanın "Sport-Rekord" aksioner şirkəti və Kiyevdə "Ekstrafon" aksioner şirkəti tərəfindən səsləri qrammafon vallarına yazılıb kitabça şəklində minlərcə tirajla çap edilib bütün Rusiya ərazisində, hətta Şərq ölkələrində yayılmışdı[7].

Bu dövrdə Qarabağ regionunda incəsənətin rəssamlıq, xəttatlıq, zərgərlik, xalçaçılıq, teatr, aktyorluq, aşıqlıq, xanəndəlik kimi sahələri inkişaf edirdi[8].

Qarabağ sənətkarlarının istər musiqi sahəsində, istərsə də başqa sahələrdə yaratdığı əsərlər Avropada, ABŞ-da, Şərq ölkələrində, keçmiş SSRİ

---

[1] Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı: 2008, s.259.
[2] Süleyman Sani Axundov. Seçilmiş əsərləri. Bakı: 2005, s.10; Azərbaycan tarixi. Yeddi cilddə. V cild (1900-1920-ci illər). Bakı: 2008, s.258.
[3] Кавказский календарь на 1909 год. Тифлис: 1910, с.334.
[4] Məmmədov N.R. Azərbaycanın Şuşa qəzası 1900-1917-ci illərdə. Bakı: 2005, s.70.
[5] Qazıyev Y. Erməni məsələsi. Yalanlar və gerçəklər. Bakı: 2009, s.314
[6] Şuşinski F.M. Azərbaycan xalq musiqiçiləri. Bakı: 1985, s.19.
[7] Yenə orada, s.30, 102.
[8] Tərlanov M., Əfəndiyev R. Azərbaycan xalq sənəti. Bakı: 1960, s.27.

məkanında nümayiş etdirilmiş və böyük maraqla qarşılanmışdır[1].

O, dövrdə Qarabağda toxunan XIX əsr "Çələbi" xalçası bu gün də Londonun Viktoriya və Albert muzeylərində nümayiş etdirilir[2].

Bununla bağlı "1902-ci ildə Tiflisdə çağırılmış sənaye işçilərinin 1-ci qurultayına aid bir sənəddə göstərilir ki, bu ustaların əksəriyyəti savadsız və kasıb olsa da, sənətkarlıq sahəsində öz avropalı həmkarlarını arxada qoymuşlar"[3].

XX əsrin əvvəllərində Qarabağ regionunun Şuşa şəhəri Azərbaycanın inkişaf etmiş mədəniyyət mərkəzlərindən birinə çevrilmişdi. Burada Ü.Hacıbəyov, C.Qaryağdıoğlu, M.B.Behbudov, Sadıqcan, F.Əmirov, Ə.Zülalov, M.Ə.Əmiraslanov, M.M.Fərzəliyev, C.Malıbəyli, Keçəçi Məhəmməd, Q.İ.Abdullayev, M.Ə.Muxtarov, L.Kərimov və b. Azərbaycan mədəniyyətinin inkişafına misilsiz xidmətlər göstərmişlər.

Dissertasiyanın üçüncü fəslinin dördüncü yarımfəsli **"Memarlıq"** adlanır. Ümumiyyətlə, XX əsrin əvvəllərində Qarabağ regionunun ayrı-ayrı ərazisində yerləşən memarlıq abidələrini müdafiə məqsədləri üçün tikilmiş qalalar, xristian dininə mənsub olan alban abidələri, İslam dininə mənsub olan dini abidələr, ticarət məqsədi ilə tikilmiş abidələr, yerli və o dövrdə zəif inkişaf etmiş Avropa tipli tikililərə bölmək olar. Bu abidələrdən müdafiə məqsədi ilə tikilmiş qalalara, alban xristian abidələrinə və İslam dininə aid məscid və qəbirüstü memarlıq abidələrinə Qarabağ regionunun, demək olar ki, bütün ərazisində rast gəlmək olur.

Ümumiyyətlə, Qarabağ ərazisində sayı 2000-dən artıq müxtəlif növ mədəniyyət abidəsi qeydə alınmışdır ki, bunların da əksəriyyətini epiqrafik abidələr təşkil edir. Azərbaycanın Şuşa, Ağdam, Bərdə, Füzuli, Zəngilan, Cəbrayıl, Laçın, Kəlbəcər rayonları ərazilərində vaxtilə xeyli miqdarda tikinti, karvansara, hamam, məscid, qəbir və s. epiqrafik abidələr qeydə alınmış və tədqiq edilmişdir[4].

Qarabağ ərazisində bu abidələrdən başqa ticarət məqsədi ilə tikilmiş abidələr də mövcuddur. Belə abidələrdən biri Zəngəzur qəzasında tikilmiş "Səlim karvansarayı" olmuşdur. Bundan başqa Zəngilanın Məmmədbəyli kəndində tikilmiş Yəhya İbn Məhəmməd türbəsinin üzərində Qarabağ memarlıq məktəbinin banisi Ə.Məcdəddinin adı var[5].

XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ regionunda bənnalıq, heykəltəraşlıq, şəbəkəçilik, oymakarlıq, daşişləmə, həkkaklıq kimi zərif usta əməyi tələb edən sənət sahələri də mövcud olmuşdur. Bu dövrdə, Şuşada daşişləmə sənəti ilə məşğul olanların sayı 104 nəfərə çatmışdı. Aparılan tədqiqatlara əsasən, 1917-ci ildə təkcə Şuşa şəhərində 2983 ev var idi ki,

---

[1] Məmmədov N.R. Azərbaycanın Şuşa qəzası 1900 -1917-ci illərdə. Bakı: 2005, s.90

[2] Muradov V. Azərbaycan xalçaları. Qarabağ qrupu. Bakı: 2010, s.74

[3] Azərbaycan incəsənəti. Bakı: 1992, s.244.

[4] Qarabağ abidələri. Üç dildə. Azərbaycan, rus, ingilis. Bakı: 2015, s.5-6.

[5] Нейматова М.С. Корпус эпиграфических памятников Азербайджана. Том III, Арабо-персо-тюркоязычные надписи Нахчыванской Автономной Республики (XII век- начало XX века). Баку: 2001, с.31-32.

bundan 2742-si daşdan tikilmişdi[1].

XIX əsrdən etibarən Qarabağda özünəməxsus memarlıq məktəbi yaranmış və onun ən görkəmli nümayəndəsi Kərbəlayı Səfixan Qarabaği olmuşdur. Onun yetirmələri Usta Qənbər Qarabaği, onun şagirdləri, qardaşı Səfər, oğlu Şükür XX əsrin əvvəllərində abidələrin yenilənməsində qiymətli işlər görmüş, onların üzərində yüksək peşəkarlıqla divar rəsmləri çəkmişlər. Bu rəsmlər işğalçı Ermənistan Respublikasının Qarabağ ərazisini işğal etdiyi dövrədək, Şuşa şəhərində Avropa üsulu ilə tikilmiş K.Mehmandarovun, H.Məmmədovun, İ.Rüstəmovun və Səfibəyovun yaşayış evlərinin salonlarında qalmaqda idi.

Dissertasiyanın **"Nəticə"** hissəsində aparılan tədqiqata yekun vurulmuş, ümumiləşdirmələr aparılmış və əldə olunmuş nəticələr təhlil edilmişdir.

[1] Məmmədov N.R. Azərbaycan Respublikasının Şuşa şəhərinin tarixi. Bakı: 2016, s.178.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı elmi məqalələrində öz əksini tapmışdır.**

1. Azərbaycanın Qarabağ bölgəsinin mübahisəli əraziyə çevrilməsində Rusiyanın rolu // "Qarabağ dünən, bu gün və sabah". 5-ci elmi konfransının materialları toplusu. Bakı: 2006, s. 29-32.
2. Azərbaycan Demokratik Cümhuriyyəti dövründə Yuxarı Qarabağda siyasi vəziyyət // Qarapapaqlar. Aylıq elmi-kütləvi dərgi. Tiflis: 2009, №6 (24), iyun, s. 8-14.
3. Yuxarı Qarabağda erməni separatizmi // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası. Naxçıvan: Tusi, 2010, №3, s. 91-99.
4. Qarabağ qırğınları // Prezident kitabxanasının elektron portalı. Bakı-2013. www.preslib.az.
5. XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ regionuna ermənilərin köçürülməsi və demoqrafik vəziyyət // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası. Naxçıvan: Tusi, 2015, №3, s. 91-99.
6. XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ regionunda ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı // Azərbaycanşünaslığın aktual problemləri. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş VI Beynəlxalq elmi konfransın materialları: 2 hissədə. I hissə. Bakı: Mütərcim, 2015, s. 448-451.
7. Развитие хлопководства в Карабахском регионе Северного Азербайджана в начале XX века // "Гилея". Науковый весник. Национальный педагогичний Университет имени М.П.Драгоманова. Киев: 2016, с. 128-133.
8. Azərbaycanın Qarabağ regionunun inzibati ərazi bölgüsü (XX əsrin əvvəlləri) // "Sivilizasiya". Bakı Avrasiya Universiteti. Bakı: Turxan, 2016, s.85-93.
9. XX əsrin əvvəllərində Azərbaycanın Qarabağ regionunun qəzaları üzrə əhalinin statistik göstəriciləri // "Geostrategiya". Bakı: 2016, s.53-57.
10. 1918-1920-ci illərdə Azərbaycanın Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında ermənilərin Azərbaycanlı əhaliyə qarşı törətdiyi soyqırımları // Azərbaycan və Şərqi Anadoluda Türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920) adlı III beynəlxalq elmi konfransın materialları. Bakı: Turxan, 2016, s.396-403.
11. Şimali Azərbaycanın Qarabağ regionunda musiqinin inkişafı tarixindən (XIX əsrin sonu– XX əsrin əvvəlləri) // Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə keçirilən Birinci Türkoloji Qurultayın 90 illik yubileyinin materialları. Bakı: Elm və təhsil, 2016, s. 450-454.
12. XIX-XX əsrin əvvəllərində Cənubi Qafqaz türkləri və onların sosial həyati (rus mənbələri əsasında) // "İpek Yolu Turizm ve Ticaretinin Avrasiya Ülkelerinin Kalkınmasındakı Yeri" İsmli II. Uluslararası Türk Dünyası Turizm Sempozyumu Materyalları. 3-5 haziran, Almatı: 2016, s.294-302.

**Бахтияр Камил оглу Гасанов**

## Гарабагский регион Азербайджана в начале XX века

## РЕЗЮМЕ

Диссертационная работа посвящена изучению политической, социальной и культурной жизни Гарабагского региона Северного Азербайджана в начале XX века. Работа раскрывает сущность геополитической стратегии и национальной политики Российской империи на Южном Кавказе в 1900-1918 гг. Исследована политика геноцида дашнаков, проводимая против тюрко-мусульманского населения Гарабагского региона в начале XX века.

Диссертационная работа состоит из введения, трех глав, 10 параграфов, заключения, списка использованных источников и литературы.

Во **введении** раскрывается актуальность темы, источники, научно-методологические основы, определяются цель и задачи работы.

Первая глава диссертации – **«Социальная и политическая ситуация в Гарабагском регионе Азербайджана».** В этой главе, состоящей из трех параграфов, освещаются такие вопросы, как политическая и историческая география, системы административно-территориального деления и управления, политика Государства Южного Кавказа в Гарабагском регионе Азербайджана.

Вторая глава диссертации – **«Социально-экономическая ситуация в Гарабагском регионе»,** состоящая из трех параграфов, на основе большого количества источников описываются и анализируется вопросы, демографический и этнический состав, аграрная реформа, сельское хозяйство и промышленные предприятия Гарабагского региона. В данной главе раскрываются сведения о численном составе христианского и тюрко-мусульманского населения.

Третья глава диссертации - **«Культурная жизнь в Гарабагском регионе»,** состоит из четырех параграфов. В этой главе проанализированы реформа системы образования царского правительства, литература, состояние прессы, искусства и памятников культуры Гарабагского региона.

В **заключение** диссертации сделаны нужные выводы из данных проблем и задач, обобщены результаты и даны предложения.

Исследовательская работа заканчивается списком использованных источников и литературы.

**Bakhtiyar Kamil oglu Hassanov**

## The Garabagh region of Azerbaijan in the early 20th century

## SUMMARY

The thesis is devoted to the investigation of the political, social and cultural life of the Garabagh region of North Azerbaijan at the beginning of the 20th century. It reveals the essence of the geopolitical strategy and the national policy of the Russian Empire in the South Caucasus in 1900-1918 years. The policy of the Dashnak genocide, implemented against the Turkish-Muslim population of the Garabagh region in the early 20th century is investigated.

The dissertational work consists of the introduction, three chapters, 10 paragraphs, the conclusion and references.

In the **introduction**, the relevance of the topic, sources, scientific and methodological foundations are revealed; the purpose and goals of the work are clarified.

The first chapter of the thesis is **"The social and political situation in the Garabagh region of Azerbaijan".** This chapter, covering three paragraphs illuminates such issues as political and historical geography, systems of administrative and territorial division and management, and the policy of the South Caucasus state in the Garabagh region of Azerbaijan.

The second chapter of the thesis is **"The Socio-Economic Situation in the Garabagh Region"**, consisting of three paragraphs, based on a large number of sources describes and analyzes such issues as demographic and ethnical composition, agrarian reform, agriculture and industrial enterprises of the Garabagh region. This chapter deals with information on the numerical strength of the Christian and Turkic-Muslim populations of the region.

The third chapter of the thesis titled **as "The Cultural life in the Garabagh region"**, consists of four paragraphs. This chapter analyzes the reform of the education system of the tsarist government, literature, the state of the press, art and cultural monuments of the Garabagh region

In the **conclusion** of the thesis, the necessary conclusions are drawn from these problems and goals, the results are summarized and suggestions are given.

At the end is given the references.

Sayı 100. Həcmi 1,75 çap vərəqi.
Kağız formatı: 60x84 1/16

"Turxan" NPB

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

***На правах рукописи***

**БАХТИЯР КАМИЛ оглу ГАСАНОВ**

# ГАРАБАГСКИЙ РЕГИОН АЗЕРБАЙДЖАНА в НАЧАЛЕ XX века

**Специальность:** 5503.02 – Отечественная история

## А В Т О Р Е Ф Е Р А Т

**Диссертации на соискание ученой степени доктора философии по истории**

**БАКУ–2018**